AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI




# TARİXİMİZİN 20 YANVAR SƏHİFƏSİ

## 20 YANVAR FACİƏSİNİN İYİRMİ YEDDİNCİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ KONFRANS

# P R O Q R A M

17 yanvar 2017-ci il

Bakı-2017



**1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.**

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**

## G İ R İ Ş   S Ö Z Ü

Vəli Hüseynov — Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin müavini

**1. 20 Yanvar – yaddaşlarda və xatirələrdə əbədi yaşayan tarix**

***Məruzəçi:*** Arif Quliyev,
Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası Aparatının rəhbəri,
Baş elmi katib

**2. 20 Yanvar Azərbaycan xalqının qan yaddaşıdır**

***Məruzəçi:*** Rafail Əhmədli,
Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası Humanitar və ictimai elmlər şöbəsinin müdiri

## Ç I X I Ş L A R

* * *

Konfrans 17 yanvar 2017-ci il tarixdə saat $11^{30}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası binasının 2-ci mərtəbəsində yerləşən Akt zalında öz işinə başlayacaq.

XALQ QƏZETİ 18 yanvar 2017-ci il, çərşənbə

# Ali Attestasiya Komissiyasında 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş konfrans keçirilib

***Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr edilmiş kitab sərgisi təşkil olunub və "Tariximizin 20 Yanvar səhifəsi" mövzusunda konfrans keçirilib.***




Komissiyadan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə AAK sədrinin müavini Vəli Hüseynov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüzdən, 20 Yanvar faciəsinin başvermə səbəblərindən, Azərbaycan tarixində tutduğu yerdən, o zaman törədilmiş cinayətlərdən, insanların vəhşicəsinə qətlə yetirilməsindən, 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsindən, onların ailə üzvlərinə göstərilən dövlət qayğısından danışıb. AAK sədrinin müavini qeyd edib ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının öz yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdiyi tarixi bir gündür. Daha sonra V.Hüseynov ümummilli lider Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək törədilmiş qanlı faciə ilə bağlı xalqımıza başsağlığı verməsindən, qətliamı törədənlərin cinayət məsuliyyətinə cəlb olunmasını tələb etməsindən, hərbçilərin dinc əhaliyə divan tutmasına və bütöv bir xalqa qarşı törədilmiş tarixi cinayətə kəskin münasibət bildirməsindən danışıb.

Konfransda AAK-ın baş elmi katibi Arif Quliyevin və bu qurumun şöbə müdiri Rafail Əhmədlinin 20 Yanvara həsr olunan məruzələri dinlənilib. AAK-ın şöbə müdirləri Gülarə Tağızadə, Tahir Kazımov, Afət Mehdiyeva, şöbə müdirlərinin müavinləri Səltənət Tağıyeva, Nailə Kələntərli, Lətifə Şahməmmədova, məsləhətçi Arif Quliyev və başqaları 20 Yanvar faciəsi ilə bağlı çıxış edərək bildiriblər ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın məğrur oğul və qızları öz qanları ilə Azərbaycan tarixinin şərəfli və müqəddəs bir səhifəsini yazıblar. Məruzələr ətrafında çıxış edənlər haqq-ədalət və müstəqilliyimizin bərpası uğrunda canlarını qurban vermiş 20 Yanvar şəhidlərinin əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşadığını, onların ailə üzvlərinə daim dövlət qayğısının göstərildiyini xüsusi vurğulayıblar.